# İdmançılarımız parlaq qələbə qazanacaqlar

Günü-gündən gözəlləşən, inkişaf edən, qüdrətlənən doğma yurdumuz Azərbaycan özünün ən fərəhli, ən tarixi, yaddaqalan günlərini yaşamaqdadır.

Böyük iqtisadi tərəqqiyə qovuşmuş, beynəlxalq siyasi arenada sanballı söz sahibinə çevrilmiş, dünya enerji şəbəkəsinin sahiblərindən biri kimi şöhrətlənmiş, güclü hərbi potensiala malik olmuş ölkəmizin belə şan-şöhrətə yetişməsinin əsasını ümummilli liderimiz Heydər Əliyevin böyük siyasi kursunu əzmlə həyata keçirən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin yorulmaz fəaliyyəti təşkil edir.

İndi respublikamızda möhtəşəm idman bayramına — dünyanın 50-dən çox ölkəsinin iştirak edəcəyi I Avropa Oyunlarına son hazırlıq işləri gedir. Tayı-bərabəri olmayan stadionlar, Olimpiya idman sarayları, yeni idman mərkəzləri, idman qurğuları istifadəyə verilmişdir.

Xalqımız böyük idman bayramının təntənəli açılışını səbirsizliklə gözləyir. Qısa bir müddət ərzində bu qədər idman mərkəzlərinin başa çatdırılmasında Azərbaycanın birinci xanımı, Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri, Heydər Əliyev Fondunun prezidenti, millət vəkili Mehriban Əliyevanın misilsiz fəaliyyəti 95 illik tarixi olan, 25 il QHT kimi fəaliyyət göstərən, 75 min xanımı özündə cəmləşdirən Azərbaycan Respublikası Qadınlar Cəmiyyətinin sonsuz fərəh hissinə səbəb olmuşdur.

Şübhəsiz ki, qarşıda I Avropa Oyunları ən yüksək səviyyədə başlayacaq, davam edəcək, peşəkar idmançılarımız idmanın müxtəlif növlərində inamla yarışaraq parlaq qələbələr qazanacaqlar.



Azərbaycan idmançılarına uğurlar arzulayırıq.

**Bahar QASIMOVA,**
**AQC-nin sədri.**